Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 14 ” aprel tarixli
99 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair**

## MÜQAVİLƏNİN FORMASI

**№ _______**

__________________________ “____” _____________ 20 ____ il
(şəhər/rayon)

Bundan sonra Müqavilənin mətnində “İcraçı” adlanan ___________________________
______________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

şəxsində bir tərəfdən, bundan sonra Müqavilənin mətnində “Sifarişçi” adlanan ________
______________________________________________________________________
(hüquqi şəxsin adı, VÖEN; fiziki şəxsin soyadı, adı, atasının adı, FİN nömrəsi, VÖEN)
______________________________________________________________________

şəxsində digər tərəfdən bu Müqaviləni aşağıdakı şərtlərlə bağlayırıq.

### 1. Müqavilənin predmeti

1.1. İcraçı Sifarişçinin _______________________________________ su obyektindən
(su obyektinin adı)
__________________________________________ üçün istifadə imkanını təmin etməyi,
(su obyektindən istifadənin xüsusi məqsədi)

Sifarişçi isə bu Müqavilə ilə müəyyən olunmuş müddətdə və qaydada su obyektindən istifadə edərək müvafiq ödənişləri həyata keçirməyi öhdəsinə götürür.

1.2. Su obyekti üzrə müəyyən edilmiş limitlərə uyğun olaraq götürülən suyun həcmi və aylar üzrə bölgüsü (min kubmetr)

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.3. Su obyektindən suyun götürülməsi üçün tətbiq olunan texniki qurğu və ya avadanlığın xüsusiyyətləri (o cümlədən sugötürmə və suburaxma qabiliyyəti, kubmetr/saniyə)
______________________________________________________________________

1.4. Su obyektinə axıdılan tullantı sularının həcmi ________________________
(min kubmetr/il, min kubmetr/ay)

1.5. Tullantı sutəmizləyici qurğunun gücü və təmizləmə parametrləri __________

1.6. Buraxıla bilən axıntı həddi ________________________________________

1.7. Su obyektinin istifadə edilən akvatoriyasının sahəsi __________ kvadratmetr

1.8. Su obyektinin istifadə edilən hissəsinin coğrafi koordinatları______________

**Qeyd.** Təbii şəraitdən asılı olaraq su obyektindən götürülən suyun həcmi və müddəti İcraçı və Sifarişçinin (bundan sonra – Tərəflər) imzaladığı aktla dəyişdirilə bilər.

## 2. İcraçının hüquq və vəzifələri

2.1. İcraçının hüquqları aşağıdakılardır:

2.1.1. su obyektindən xüsusi məqsəd üçün istifadə ilə bağlı bu Müqavilənin 4-cü hissəsinə uyğun olaraq hesablanan məbləğin ödənilməsini tələb etmək;

2.1.2. bu Müqavilənin şərtlərinə riayət edilməsini Sifarişçidən tələb etmək;

2.1.3. bu Müqavilənin şərtləri Sifarişçi tərəfindən pozulduqda həmin pozuntuların ağlabatan müddətdə aradan qaldırılması üçün Sifarişçiyə bildiriş təqdim etmək;

2.2. İcraçının vəzifəsi Sifarişçinin su obyektindən sərbəst və maneəsiz istifadə imkanını təmin etməkdir.

## 3. Sifarişçinin hüquq və vəzifələri

3.1. Sifarişçinin hüquqları aşağıdakılardır:

3.1.1. bu Müqavilənin şərtlərinə riayət edilməsini İcraçıdan tələb etmək;

3.1.2. su obyektindən götürülən sudan təkrar istifadə etmək;

3.1.3. su obyektindən bu Müqaviləyə uyğun istifadəni həyata keçirmək məqsədilə qanunvericiliyin tələblərinə riayət olunmaqla müvafiq qurğular və tikililər inşa etmək;

3.1.4. su obyektindən götürülən suyun və su obyektinə axıdılan tullantı sularının kəmiyyət və keyfiyyətini yoxlamaq.

3.2. Sifarişçinin vəzifələri aşağıdakılardır:

3.2.1. su obyektindən bu Müqavilədə göstərilmiş məqsəd üçün istifadə etmək və Müqavilənin şərtlərinə riayət etmək;

3.2.2. su obyektindən götürülən sudan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək, torpaqların meliorativ vəziyyətinin pisləşməsinə yol verməmək;

3.2.3. istifadə zamanı su obyektinin çirkləndirilməsinə yol verməmək, su mühafizə zonaları və sahil mühafizə zolaqlarının istifadə rejiminə əməl etmək;

3.2.4. su obyektinə tullantı sularının axıdılması zamanı sutəmizləyici qurğu və avadanlıqlardan istifadəni təmin etmək;

3.2.5. su obyekti üzərində mövcud olan hidrotexniki qurğuların zədələnməsinə və ya sıradan çıxarılmasına yol verməmək;

3.2.6. su obyektinin istifadəsi zamanı hər hansı fors-major və ya təhlükəli hal baş verdikdə dərhal İcraçını məlumatlandırmaq;

3.2.7. bu Müqavilə ilə müəyyən edilmiş hüquq və vəzifələri üçüncü şəxslərə ötürməmək;

3.2.8. su obyektindən götürülən sudan istifadəyə dair statistika hesabatını vaxtında aidiyyəti üzrə təqdim etmək;

3.2.9. su obyektindən xüsusi məqsəd üçün istifadə ilə bağlı bu Müqavilənin 4-cü hissəsinə uyğun olaraq hesablanan məbləğin ödənilməsini təmin etmək;

3.2.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 308 nömrəli Qərarı ilə təsdiq edilmiş "Su obyektlərinə çirkləndirici maddələrin axıdılmasına görə ödəniş normativləri"ndə nəzərdə tutulmuş ödənişləri təmin etmək;

3.2.11. su qanunvericiliyi ilə müəyyən edilmiş sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji, metroloji norma və qaydaların tələblərinə əməl etmək.

## 4. Müqavilə üzrə hesablaşma

4.1. Sifarişçi su obyektindən xüsusi məqsəd üçün istifadə ilə bağlı cari ay və ya il üzrə ödənişi hər növbəti ayın və ya ilin 10-dək İcraçının hesabına ödəyir.

4.2. Su obyektlərindən texniki qurğular və avadanlıqlar tətbiq etməklə götürülən suyun həcminə görə ödəniş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları"na uyğun olaraq hesablanır.

4.3. Su obyektinə tullantı sularının axıdılmasına görə ödəniş Sifarişçinin su obyektindən götürdüyü və (və ya) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları"na uyğun olaraq aldığı suyun həcminə əsasən hesablanır.

4.4. İcraçı tərəfindən Sifarişçinin su obyektindən xüsusi məqsəd üçün istifadə etməsinin hesabatı aparılır və bu Müqavilə üzrə ödənişlər Tərəflər arasında müvafiq aktla sənədləşdirilir.

## 5. Müqavilənin müddəti və müqaviləyə xitam verilməsi şərtləri

5.1. Bu Müqavilə Tərəflərin imzaladığı gündən qüvvəyə minir.

5.2. Bu Müqavilənin müddəti "_____" _____________ 20_____ il tarixindən başlayır və "_____" _____________ 20_____ il tarixində bitir.

5.3. Bu Müqaviləyə aşağıdakı hallarda xitam verilir:

5.3.1. Tərəflərdən birinin təşəbbüsü ilə 1 (bir) ay əvvəl yazılı şəkildə məlumatlandırmaqla;

5.3.2. Tərəflərdən biri ləğv edildikdə (hüquqi şəxs ləğv edildikdə, fiziki şəxs vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə);

5.3.3. bu Müqavilənin 3.2-ci bəndində qeyd olunan öhdəliklər Müqavilə müddətində 2 (iki) dəfə yerinə yetirilmədikdə;

5.3.4. su obyektlərindən xüsusi məqsədlər üçün verilmiş icazə ləğv edildikdə;

5.3.5. təbii şəraitdən asılı olaraq (iqlim dəyişikliyi fonunda yağıntıların normadan az olması, su hövzəsində qar ehtiyatının azalması, yeraltı suların səviyyəsinin aşağı düşməsi nəticəsində suyun azalması, ərazidə ekoloji böhranın yaranması) su obyektindən istifadə mümkün olmadıqda.

5.4. Bu Müqavilə ləğv edildikdə Tərəflər bu Müqavilə ləğv edilənədək yaranan bütün öhdəlikləri lazımi qaydada yerinə yetirirlər.

## 6. Müqavilə üzrə mübahisələrin həll olunması

6.1. Bu Müqavilə üzrə yaranan mübahisələr Tərəflər arasında ilk növbədə danışıqlar yolu ilə həll edilir.

6.2. Danışıqlar nəticəsində Tərəflər arasında razılıq əldə olunmadıqda mübahisələr məhkəmə qaydasında həll edilir.

## 7. Tərəflərin məsuliyyəti

7.1. Bu Müqavilədə qeyd edilən öhdəliklərin yerinə yetirilməməsinə görə Tərəflər Azərbaycan Respublikasının qanunlarına uyğun məsuliyyət daşıyırlar.

7.2. Bu Müqaviləyə xitam verilməsi Tərəfləri bu Müqavilənin şərtlərinin pozulması ilə bağlı məsuliyyətdən azad etmir.

## 8. Digər şərtlər

8.1. Bu Müqavilə eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib edilmişdir. Nüsxələrdən biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

8.2. Qanunvericiliyə və bu Müqavilənin şərtlərinə zidd olmamaq şərtilə bu Müqavilədə dəyişiklik edilə bilər. Bu Müqavilədə dəyişiklik edilməsinə yalnız Tərəflərin qarşılıqlı razılığına əsasən yol verilir və imzaları ilə rəsmiləşdirilir. Həmin dəyişiklik bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur.

## 9. Tərəflərin ünvanları və rekvizitləri

| **İcraçı** | **Sifarişçi** |
| --- | --- |
| ________________________________ | ________________________________ |
| (İcraçının adı, VÖEN, Hesab nömrəsi) | (Sifarişçinin adı, VÖEN, Hesab nömrəsi) |
| Ünvan:__________________________ | Ünvan: __________________________ |
| ________________________________ | ________________________________ |
| (imza) (vəzifəli şəxsin adı və soyadı) | (imza) (hüquqi şəxsin adı, fiziki şəxsin adı və soyadı) |
| M.Y. | M.Y. |

____________________